Ədəbiyyat QƏZETİ

6 iyul 2024-cü il 27

# Tarix olduğu kimi

*Vasif Quliyevin çoxcildli "Şuşa qalası" kitabı çapdan çıxıb*




Bütün halıyla, səhifə-səhifə Şuşa havası, Şuşa sevgisi süslənib görkəmli yazıçı-jurnalist Vasif Quliyevin 10 cildlik "Şuşa qalası: Şəhərin yaranması" kitabında. Təqdim edilən materiallar Şuşa görüntüləri, Şuşa yaddaşıyla naxışlanıb. Lap ilkdən, başlanğıcdan ulu öndər Heydər Əliyevin unudulmaz deyimləri gəlir: "...Şuşa Azərbaycanın ən əziz və ən böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşanı quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir".

İftixar, qürur dolu bu fikirləri Prezident İlham Əliyevin unudulmaz müjdəsi izləyir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi. Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq. Bu tarixi qələbəni döyüş meydanlarında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaq. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

Birinci kitabda Şuşa qalasının qurucusu Pənahəli xan Cavanşirin fəaliyyəti Qarabağ tarixçisi Mirzə Camal bəyin yazdıqlarıyla təqdim edilir. Kürəkçay müqaviləsi, Türkmənçay sülh müqaviləsi, Şuşanın bünövrəsinin qoyulması an-an xatırlanır, Şuşa darvazaları, Qala bürcü, Bağırqan dağı göz önünə gətirilir.

İkinci kitabda Şuşanın məşhur məhəllələri və küçələrindən söz açılır. Üçüncü kitab Şuşa toponimlərilə bağlıdır. Şəhərin tarixi-mamerlıq abidələrindən dördüncü, flora və faunasından beşinci, müqəddəs məkanlarından altıncı, karvansaraları, hamam və bazarları haqqında yeddinci, sənətkarlıq tarixi haqqında səkkizinci, ticarətindən doqquzuncu, səfalı bulaqlarından onuncu kitablarda bəhs olunur.

Eyni zamanda bu cildlər ayrı-ayrılıqda ingilis dilində də nəşr edilib.

*Sərvaz HÜSEYNOĞLU*